*Şahid Şükürov**

# Azərbaycan Dövlətinə məxsus Müəssisələrin Azərbaycan Respublikasının Beynəlxalq Müqavilələrini Bağlaması

**Annotasiya**
İstənilən dövlətin suveren olaraq müqavilələr, o cümlədən beynəlxalq müqavilələr bağlamaq, belə müqavilələrə daxil olmaq səlahiyyəti var. Bu səlahiyyəti dövlətin adından onun qurumları, o cümlədən dövlət müəssisələri həyata keçirir. Amma dövlət müəssisələrin bağladıqları beynəlxalq müqavilələr heç də həmişə dövlətin müqaviləsi hesab edilməməlidir. Bu baxımdan, məqalə hansı beynəlxalq müqavilələrin dövlətin beynəlxalq müqaviləsi olmasını, hansı qurumların dövlət müəssisəsi hesab edilməsini, müəssisə anlayışını, dövlət müəssisələrinin beynəlxalq müqavilə praktikasını yerli qanunvericiliyin nəzərindən araşdırır.

**Abstract**
Any state as a sovereign is entitled to conclude or to enter into agreements, including international agreements. The competence to enter into agreements is implemented by entities of state, including state enterprises. However, not all and not always agreements signed by state enterprises shall be deemed to be agreements of the state. Therefore, this article examines and clarifies from the angle of national legislation which international agreements are considered state agreements, which entities are considered state enterprises, what is an "enterprise" and practice of state enterprises in concluding international agreements.

## Mündəricat

Giriş ....................................................................................................125

I. Azərbaycan dövlətinə məxsus müəssisələr (dövlət müəssisələri).............126

1. Müəssisə..........................................................................................126

2. Azərbaycan dövlətinə məxsus müəssisələr ...........................................128

3. "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ("Qanun") və "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması və ya ləğv edilməsi haqqında təkliflərin mərkəzi icra hakimiyyəti orqanları və dövlətə məxsus müəssisələr tərəfindən verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan

* Bakı Dövlət Universiteti LL.B və LL.M, Bremen Universiteti, Avropa və Beynəlxalq Hüquq (LL.M), Bremen Universiteti (Ph.D).

Respublikası Prezidentinin Fərmanı ("Qaydalar") baxımından "*Azərbaycan dövlətinə məxsus müəssisələr*" ....................130

II. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ....................131

1. Qanun baxımından Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ....................131

2. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması səlahiyyəti ....................133

3. Dövlətə məxsus müəssisələrin beynəlxalq müqavilələri ....................134

4. Dövlətə məxsus müəssisələrin rəhbərlərinə səlahiyyət verilməsi tələb edilən beynəlxalq müqavilələr ....................134

Nəticə ....................135

## Giriş

Suverenlik və dövlətin suveren olması onun müstəqil olaraq beynəlxalq müqavilələrə daxil olması və onları bağlaması ilə ölçülə bilir. Beynəlxalq müqavilələri bağlamaq imkanı həmçinin dövlət olaraq tanınmanın mühüm hissəsidir.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra bir çox dövlətlə diplomatik əlaqələrinin qurulmasını da məhz beynəlxalq müqavilələrin (protokolların) bağlanması vasitəsilə həyata keçirmişdir.

Sözsüz ki, ölkənin mərkəzi icra hakimiyyəti orqanlarının beynəlxalq müqavilələr bağlaması bu sənədləri dövlətin beynəlxalq müqavilələri kimi yaradır və tanıdır. Müvafiq olaraq belə sənədlər Azərbaycan Respublikasının beynəlxalq müqavilələri olaraq qəbul edilir.

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini bağlamaq səlahiyyəti heç də hər kəsə verilmir. Konstitusiyaya əsasən, bu səlahiyyət yalnız ölkə başçısındadır[1], lakin ölkə başçısının verdiyi səlahiyyətlə digər şəxslər, o cümlədən Azərbaycan dövlətinə məxsus müəssisələrinin rəhbərləri də Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini bağlaya bilərlər.[2]

Amma Azərbaycan dövlətinə məxsus müəssisələrin bağladıqları bütün beynəlxalq müqavilələr Azərbaycan Respublikasının beynəlxalq müqavilələri sayılırmı? Azərbaycan Respublikasının beynəlxalq müqavilələri hansılardır?

[1] Azərbaycan Respublikası Konstitusiyası, mad. 109.17 (1995).

[2] Yenə orada, mad. 110-1; "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" qanun, mad. 6, 1057 (1995); "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması və ya ləğv edilməsi haqqında təkliflərin mərkəzi icra hakimiyyəti orqanları və dövlətə məxsus müəssisələr tərəfindən verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Fərman, bənd 1.3, 373 (2011).

Azərbaycan qanunvericiliyi baxımından Azərbaycan dövlətinə məxsus müəssisələr hansılardır? Ümumiyyətlə, dövlət müəssisələri hansılardır? Müəssisə dedikdə qanunvericilik baxımından nə anlaşılır?

Hazırkı məqalənin məqsədi bu sualları aydınlaşdırılması üçün araşdırmaqdır.

Məqalənin məqsədləri üçün əsas olaraq "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının 1057 saylı 13 iyun 1995-ci il tarixli Qanunu ("Qanun") və "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması və ya ləğv edilməsi haqqında təkliflərin mərkəzi icra hakimiyyəti orqanları və dövlətə məxsus müəssisələr tərəfindən verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 373 saylı 19.01.2011 tarixli Fərmanı ("Fərman") araşdırılacaqdır.

Məqalə ilk olaraq qanunvericilik baxımından "müəssisə" anlayışını, daha sonra hansı müəssisələrin "dövlət müəssisəsi" olmasını, eləcə də Qanun və Fərman baxımından "dövlət müəssisə"lərinin hansılar olmasını araşdırır. Bunun ardından Azərbaycan Respublikasının beynəlxalq müqavilələri - hansı müqavilələrin Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi olması, Qanun baxımından Azərbaycan Respublikasının beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması zamanı səlahiyyət məsələsi, dövlətə məxsus müəssisələrin beynəlxalq müqavilələri və dövlət müəssisələrinə səlahiyyətin verilməsi tələb edilən beynəlxalq müqavilələr məqalənin araşdırma predmeti edilmişdir.

## I. Azərbaycan dövlətinə məxsus müəssisələr (dövlət müəssisələri)

### 1. Müəssisə

Azərbaycan qanunvericiliyi baxımından "*müəssisə*" sözü yalnız hər-hansı (dövlət yaxud qeyri-dövlət) kommersiya şirkətinin, o cümlədən dövlət şirkətinin təsviri üçün istifadə edilmir. "*Müəssisə*" olaraq müxtəlif yerlər və qurumlar tərif edilir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi (MM) "müəssisə" olaraq "*tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və ya digər oxşar*" qurumları tanıyır və bəzi hallarda onları qəyyum olaraq müəyyən edir[3]; yaxud digər halda "*torpaq sahələri, binalar və qurğular, yaşayış və qeyri-yaşayış sahələri, fərdi yaşayış və bağ evləri, yer təki sahələri, sututarları, meşələr və çoxillik əkmələr, əmlak kompleksi*" "*müəssisə*" olaraq qeyd edilir.[4] Həmçinin hospitallar, sanatoriyalar və digər hərbi-müalicə yerləri də müəssisə olaraq tanıdılır.[5] Mülki Məcəllə eyni

[3] Azərbaycan Respublikasının Mülki Məcəlləsi, mad. 35.4 (1999).
[4] Yenə orada, mad. 139-1.1.5.
[5] Yenə orada, mad. 362.3.1.

zamanda "müəssisə" olaraq xitab etdiklərini kirayə/icarə predmeti də edir.[6] Bunlarla yanaşı françayzinq ilə bağlı " müstəqil müəssisə" termini istifadə edilir ki, bu da "*müəssisə*" dedikdə MM baxımından yalnız kommersiya şirkətlərinin nəzərdə tutulması qənaətinə gəlinməsini mümkün etmir.[7] Mülki Məcəllə maliyyə-investisiya qurumlarını da müəssisə adlandırır.[8] "Tibb müəssisələri", "təhsil müəssisələri", "hərbi müəssisə" və "müalicə müəssisəsi" terminlərindən məcəllənin ayrı-ayrı maddələrində bir neçə halda istifadə edilir.[9]

"Dövlət müəssisələri" termini MM-də belə müəssisələrin özəlləşdirilərək səhmdar cəmiyyətə çevrilməsi ilə bağlı olaraq bir halda istifadə edilir.[10]

Ümumən, araşdırma 1999-cu ildə yeni MM qəbul *edilənə qədər* məhdud məsuliyyətli hüquqi şəxslərə münasibətdə də "müəssisə" anlayışından istifadə edildiyini göstərir. Bu anlayış müəssisələr haqqında ayrı-ayrı qanunların Mülki Məcəllədə birləşdirilməsindən sonra "cəmiyyət" anlayışı ilə əvəz edilmişdir.

Müəssisə termininin iqtisadi qanunvericilik baxımndan birbaşa tərifi yalnız Azərbaycan Respublikasının Vergilər Məcəlləsində (VM) verilir.[11] Məcəllə öz məqsədləri üçün aşağıdakıları "müəssisə" hesab edir:

a. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmış hüquqi şəxslər;

b. xarici dövlətin qanunvericiliyinə uyğun olaraq yaradılmış hüquqi şəxslər (korporasiyalar, şirkətlər, firmalar və digər analoji qurumlar), habelə onların filialları və ya daimi nümayəndəlikləri;

c. Azərbaycan qanunlarına əsasən yaradılmış hüquqi şəxslərin sərbəst balansa, cari və ya digər hesablara malik olan filialları, struktur bölmələri və ya digər ayrıca bölmələri.

Müəssisə termini qanunvericilikdə yalnız mülki və iqtisadi hüquq münasibətləri kontekstində deyil, həm də cinayət hüququ kontekstində istifadə edilir. Cəzaçəkmə yerlərinin "müəssisə" adlandırılması (məs. CM maddə 55)[12], *yaxud* "ümumi və möhkəm rejimli tərbiyə müəssisələri" (CM maddə 55)[13] termininin istifadəsi qanunvericilikdə müəssisə terminindən çoxşaxəli istifadənin olmasının növbəti göstəricisidir.

VM-nın verdiyi tərif çərçivəsində aydınlaşdırılmalı olan, əlbəttə ki, Mülki Məcəllə və Cinayət Məcəlləsində (CM) qeyd edilən müəssisələrin "hüquqi şəxs" olub olmamasıdır.

[6] Yenə orada, mad. 700.
[7] Yenə orada, mad. 723.
[8] Yenə orada, mad. 1048-2.2.
[9] Yenə orada, mad. 1112, 1119.5, 1121.3.2, 1181.4.
[10] Yenə orada, mad. 98.8.
[11] Azərbaycan Respublikasının Vergi Məcəlləsi, mad. 13.2.39 (2000).
[12] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, mad. 55 (1999).
[13] Yenə orada.

Mülki Məcəllə hər hansı qurumun "hüquqi şəxs" olmasını onun qeydiyyatına və qeydiyyat nəticəsində əldə etdiyi hüquq qabiliyyətinə bağlayır (MM maddə 43, 44).[14] Bu baxımdan MM və CM-də qeyd edilən müəssisələrin bir qisminin "hüquqi şəxs" ola bilməsi mümkündür. Bununla belə, bəzi hallarda müəssisələrin hüquqi şəxs hesab edilməməsi də realdır. Lakin MM və CM-də qeyd edilən müəssisələrdən hüquqi şəxs hesab edilənlərinin əksər hallarda qeyri-kommersiya hüquqi şəxs olması aydınlaşır.

Qeyde edilməlidir ki, VM öz məqsədləri üçün qeyri-kommersiya və kommersiya hüquqi şəxsləri arasında fərq qoymur.

Audit xidməti haqqında qanunla müəssisələr həm də "təsərrüfat subyekti" olaraq qəbul edilir[15]

Yuxarıda qeyd edilənlər onu göstərir ki, "*müəssisə*" sözü çox geniş şəkildə "*təsisatları*" ifadə etmək üçün istifadə edilir.

Bu baxımdan, qanunvericilikdə "*müəssisə*" dedikdə (kommersiya və qeyri-kommersiya) hüquqi şəxslər və təsisatlar (təhsil, tərbiyə, çəzaçəkmə yerləri, idarələr və oxşar təsisatlar) nəzərdə tutulur. Bu mənada "müəssisə" dedikdə nəinki kommersiya qurumları, həm də qeyri-kommersiya qurumlarının nəzərdə tutulduğu aydınlaşır. Həmçinin qanunvericilik baxımından müvafiq anlayışın dövlət, eləcə də qeyri-dövlət müəssisələrinə aid edilən termin olduğu anlaşılır.

Hazırkı məqalənin məqsədi "*dövlət müəssisələri*" və onların beynəlxalq müqavilələri bağlaması olduğundan araşdırma bu istiqamətdə davam edəcəkdir.

## 2. Azərbaycan dövlətinə məxsus müəssisələr

"*Azərbaycan dövlətinə məxsus müəssisələr*" ifadəsinə mövcud qanunvericilik aktları ayrıca xüsusi anlayış vermir.

Bununla belə, "*Azərbaycan dövlətinə məxsus*" ifadəsi kifayət qədər aydındır, birmənalıdır və müəssisələrin tam olaraq Azərbaycan dövlətinə *aidliyini* göstərir. Müəssisələrin Azərbaycan dövlətinə məxsus olmasının (hər oxşar münasibətdə olduğu kimi) iki əsas istiqaməti vardır: əmlak və səhmlərin (payların) nəzarət zərfinə sahiblik. Bu isə öz növbəsində "*məxsus*" ifadəsinin mülkiyyətçini bildirmək üçün istifadə edildiyinin göstəricisidir.

Qeyd edilən iki istiqaməti də nəzərə almış olsaq: "Azərbaycan dövlətinə məxsus olan müəssisələr" dedikdə - *Azərbaycan dövlətinin mülkiyyətində olan, qanunvericiliklə tələb edildiyi hallarda qeydiyyata alınmış və hüquq qabilliyəti olan kommersiya, yaxud qeyri-kommersiya hüquqi şəxsləri və təsisatlarının* nəzərdə tutulduğu anlaşılır.

[14] Yuxarıda istinad 3, mad. 43.1.

[15] Auditor xidməti haqqında Azərbaycan Respublikası qanunu, mad. 1, 882 (1994).

Azərbaycan dövləti müxtəlif müəssisələri həm təsisat olaraq (hüquqi şəxs olmadan), həm də hüquqi şəxs kimi yaradır. Bu baxımdan, mülkiyyətçi olaraq Azərbaycan dövlətinə məxsus olan müəssisələrin sayı olduqca çoxdur.

**Əmlak vs. Müəssisə**: MM baxımından "Əmlak istənilən əşyaların və qeyri-maddi əmlak nemətlərinin toplusudur" (MM, maddə 135.2.).[16] Başqa halda "Azərbaycan Respublikasına mülkiyyət hüququ ilə mənsub olan əmlak dövlət mülkiyyətidir" (MM, maddə 155.1).[17] Bu mənada, əmlak "*müəssisə*"nin (o cümlədən dövlət müəssisəsinin) tərkib hissəsidir, amma "*müəssisə*"nin özü deyildir. Bununla belə, "*müəssisə*" anlayışı ilə bağlı yuxarıdakı hissədə edilən qeydlərdə göstərildiyi kimi hospitallar, sanatoriyalar, müalicə təsisatları – yəni əmlakla (infrastrukturla) ifadə edilən təsisatlar – "müəssisə" hesab edilə bilir. Lakin bu "müəssisələr"in rəhbərlərinin Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalamaq səlahiyyəti aşağıdakı əlavə araşdırmanın predmetidir.

**Mərkəzi icra hakimiyyəti orqanı vs. dövlət müəssisələri**: Aydınlaşdırılmalı olan digər məsələ qanunvericilik baxımından *"dövlət müəssisələri"nin* həm də (mərkəzi yaxud yerli)*"icra hakimiyyət orqanları"* yaxud əksinə *"icra hakimiyyət orqanları"nın "dövlət müəssisələri"* olub olmamasıdır.

Qanunvericilikdə "*hakimiyyət orqanları*" yaxud "*icra hakimiyyəti orqanı*" ifadələrinə anlayış verilmir. Bunun qanunvericilik texnikası baxımından praktik səbəbləri ola bilər. Belə ki, hansı orqanın "*icra hakimiyyəti orqanı*"nın səlahiyyətlərini icra etməsi qəbul edilən normativ hüquqi aktdan asılı olaraq hər dəfə ayrıca müəyyənləşdirilir. Qanunvericilikdə "*mərkəzi icra hakimiyyəti orqanı*"na da anlayış verilmir, bu isə konkret halda beynəlxalq müqavilələrin bağlanması baxımından qeyri-müəyyənliyə səbəb ola bilir. Çünki dövlət müəssisələrinin beynəlxalq müqavilələr imzalayarkən səlahiyyət verilməsi əsaslarından biri kimi Fərmanla təsdiq edilmiş qaydaların 1.2-ci bəndi göstərilir.[18] Bu baxımdan, haqlı olaraq sual oluna bilər - "*Azərbaycan dövlətinə məxsus müəssisələr*" (dövlət müəssisələri) "*mərkəzi icra hakimiyyəti orqanı*"dırmı?

Maraqlıdır ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "*Mərkəzi icra hakimiyyəti orqanları*"nı sadaladığı internet səhifəsində[19] başlıqlardan biri "*Dövlət şirkətləri və Dövlət xidmətləri*"dir. Amma "*dövlət şirkətləri*" siyahıya əlavə edilməmişdir. Bunun konstitusion səbəbləri mövcuddur. Azərbaycan Respublikası Konstitusiyası "*mərkəzi icra hakimiyyəti orqanı*" rəhbərlərinin Nazirlər Kabinetinin tərkibinə daxil olduğunu yazır.[20] Əgər qəbul etsək ki, "*Dövlət şirkətləri*" mərkəzi icra hakimiyyəti orqanlarıdır, bu halda "dövlət şirkətləri"nin rəhbərləri Nazirlər Kabinetinin tərkibinə daxil edilməlidir. Bu

[16] Yuxarıda istinad 3, mad. 135-2.
[17] Yenə orada, mad. 155-1.
[18] Yuxarıda istinad 2, bənd 1.2.
[19] Siyahıya əsasən Nazirliklər, Dövlət Komitələri, Dövlət Xidmətləri, Dövlət Agentliklərinin bəzisi mərkəzi icra hakimiyyəti orqanı hesab edilir. Daha ətraflı: https://cabmin.gov.az/az/page/57/
[20] Yuxarıda istinad 1, mad. 115.

isə mümkün görünmür. Digər tərəfdən bilinən təcrübədir ki, bəzi hallarda "*mərkəzi icra hakimiyyəti orqanları*"nın səlahiyyətləri Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə dövlət şirkətlərinin səlahiyyəti edilə bilinir. Buna baxmayaraq, hansısa konkret hal üçün səlahiyyətlərin/funksiyaların ötürülməsi "dövlət şirkətləri"ni "mərkəzi icra hakimiyyəti orqanı" etmir. Qanun və digər normativ aktların araşdırılması da göstərir ki, konstitusion olaraq "*mərkəzi icra hakimiyyəti orqanı*" və "*dövlət şirkətləri*"nin yerinə yetirdiyi funksiyalar fərqlidir. Normativ aktlar da bu iki instituta fərqli və ayrı-ayrılıqda yanaşır (ayrı maddələrdə, ayrı-ayrı müddəalarla, və s.).[21]

Əlbəttə, başqa bir mövzu "*mərkəzi icra hakimiyyəti orqanları*"nın "*dövlət müəssisəsi*" hesab edilib-edilməməsidir. Sözsüz ki, *lüğəti* mənada "*orqan*" əmlakı, idarəetmə aparatı, təsərrüfat fəaliyyəti və oxşar bir çox əlaməti ilə "*təsisat*"dır, bu mənada da "*müəssisə*" hesab edilə bilər. Həmçinin qanunvericiliyin "*müəssisə*" anlayışına yuxarıda təsvir edilən yanaşması da deməyə əsas verir ki, "*mərkəzi icra hakimiyyəti orqanları*" dövlətin müəssisələri hesab edilə bilər.

Amma nəzərə alınmalıdır ki, bu mənada hər "*dövlət müəssisəsi*" "*dövlət şirkəti*" deyildir, baxmayaraq ki, hər "*dövlət şirkəti*" "*dövlət müəssisə*"sidir.

O da qeyd edilməlidir ki, Nazirlər Kabineti qeyd edilən siyahıda "*dövlət müəssisələri*" anlayışından istifadə etmir. Bu ölkə idarəetmə orqanları səviyyəsində "*dövlət şirkətləri*"nə, "*dövlət müəssisələr*"indən fərqli baxıldığını və (təbiəti etibarı ilə) bütün "*dövlət müəssisələr*"inin "*dövlət şirkəti*" olaraq nəzərdən keçirilmədiyinin göstəricisidir.

## 3. "Qanun" və "Fərman" baxımından "*Azərbaycan dövlətinə məxsus müəssisələr*"

Qanun öz məqsədləri üçün olsa belə, "*Azərbaycan dövlətinə məxsus müəssisələr*"ə anlayış yaxud izah vermir. Qaydalarda da ifadənin izahı yoxdur.

Nəzəri olaraq, Qanun və Qaydalar dövlətə məxsus bütün müəssisələri nəzərdə tutur (hüquqi şəxs olub-olmamasından asılı olmayaraq). Bu mənada da hər hansı məhdudiyyət müəyyən edilmir.

Təcrübədə Qanun və Qaydaların əsasən dövlət şirkətlərinə tətbiq edildiyi müşahidə edilir. Amma bəzi hallarda dövlət şirkətlərindən başqa müəssisələrə də Qanun və Qaydaların tətbiq edildiyini görmək mümkündür.[22] Geniş yayılmış təcrübə isə Qanun və Qaydaların, dövlət müəssisələri arasından dövlət şirkətlərinə tətbiq edilməsidir.

[21] Nümunə üçün: "Azərbaycan Respublikasının beynəlxalq müqavilələri" haqqında qanun, yuxarıda istinad 2, mərkəzi icra hakimiyyəti orqanları ilə dövlətə məxsus müəssisələri ayırır.

[22] Nümunə üçün: Azərbaycan Respublikası Prezidenti tərəfindən beynəlxalq saziş/memorandumları imzalamaq üçün Bakı Şəhər İcra Hakimiyyətinə verilmiş səlahiyyətlər - BŞİH ilə Roma şəhəri meriyası arasında Protokol (http://e-qanun.az/framework/7410); Azərbaycan Elmlər Akademiyasına Avropa Nüvə Tədqiqatları Təşkilatı (CERN) ilə Yüksək Enerjilər Fizikası sahəsində Saazişin imzalanması səlahiyyətinin verilməsi (http://e-qanun.az/framework/3776).

Maraqlıdır ki, Qanun və Qaydalar baxımından "*Azərbaycan dövlətinə məxsus müəssisə*" ifadəsi "*mərkəzi icra hakimiyyəti orqanları*"na şamil edilmir. Belə ki, Qanun və Qaydalar "*mərkəzi icra hakimiyyəti orqanları*"nı "*dövlətə məxsus müəssisələr*"dən fərqləndirməklə onlara ayrı-ayrı xitab edir, eləcə də onların "*və*" bağlayıcısı ilə ayrıldığı bəndlər/maddələr mövcuddur.[23] Bu isə özlüyündə göstərir ki, Qanun və Qaydalar baxımından "*mərkəzi icra hakimiyyəti orqanları*" və "*dövlətə məxsus müəssisələr*"ə eyni deyil, fərqli qurumlar olaraq yanaşılır.

## II. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri

"Beynəlxalq müqavilələr" anlayış olaraq genişdir (beynəlxalq hüququn (xüsusi və ümumi) ayrıca sahəsidir) və hazırkı məqalənin məqsədi "*beynəlxalq müqavilələr*"*i* geniş mənada araşdırmaq deyildir (məqalə çərçivəsində bu fiziki olaraq mümkün də deyildir). Bu baxımdan, mövzu daha dar çərçivədə və sırf Qanun və Fərmanın perspektivindən "Azərbaycan Respublikasının beynəlxalq müqavilələri"nin nələr hesab edildiyinə və kimlərin belə müqavilələri bağlaya bilməsi məsələsinə köklənəcəkdir.

Bununla belə, Qanuna keçməzdən əvvəl ümumi olaraq qeyd edilməlidir ki, 1969-cu il Beynəlxalq Müqavilələr haqqında Vyana Konvensiyasına əsasən (termin olaraq) "*müqavilə*" dedikdə "dövlətlər arasında yazılı formada bağlanılan və beynəlxalq hüquqla tənzimlənən, bir sənəddə və ya öz arasında əlaqəli olan iki və ya daha çox sənəddə əks olunmasından və konkret adından asılı olmayaraq beynəlxalq razılaşma başa düşülür."[24]

Bu mənada, "*Azərbaycan Respublikasının beynəlxalq müqavilələri*" də digər dövlətlərlə bağlanılmış və beynəlxalq hüquqla tənzimlənən sənədlər olaraq anlaşılmalıdır. Bununla belə, Qanun Konvensiyanın müqavilə anlayışını genişləndirir ki, bu növbəti hissədə daha ətraflı araşdırılır.

### 1. Qanun baxımından Azərbaycan Respublikasının beynəlxalq müqavilələri

Qanunda olduqca birmənalı anlayış var: "Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi, adından asılı olmayaraq, Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla bu Qanunla müəyyənləşdirilmiş qaydada yazılı şəkildə bağlanan razılaşmasıdır."[25]

Qeyd edilməsi vacibdir ki, Qanunun predmeti hər hansı beynəlxalq müqavilələr deyil, *xarici dövlətlər və beynəlxalq təşkilatlarla* olan müqavilələrdir.

---

[23] Nümunə üçün: "Azərbaycan Respublikasının beynəlxalq müqavilələri" haqqında qanun, yuxarıda istinad 2, mad. 17; "Azərbaycan Respublikasının beynəlxalq müqavilələri Qaydaları", yuxarıda istinad 2, bənd 2.2, 2.3, "mərkəzi icra hakimiyyəti orqanları" və "dövlətə məxsus müəssisələr"ə ayrı-ayrılıqda qayda müəyyən edir.
[24] Müqavilələr haqqında Vyana Konvensiyası, mad. 2 (1969).
[25] Yuxarıda istinad 2, mad. 1.

Bu müqavilələr Qanunda (a) dövlətlərarası və (b) hökumətlərarası olmaqla 2 yerə ayırılır.[26] Qanunda hətta (istisna müəyyən edilmədən) *mərkəzi icra hakimiyyəti orqanları* tərəfindən bağlanılan beynəlxalq müqavilələrin də hökumətlərarası müqavilə hesab edildiyi yazılır.[27] Əlbəttə, dövlətin xarici qeyri-dövlət qurumları (kommersiya təşkilatları) ilə olan müqavilələri də "beynəlxalq müqavilə"dir, amma belə müqavilələr Qanunun əhatə dairəsindən kənardadır.

Dövlətlərarası müqavilələr Azərbaycan Respublikası adından imzalanan müqavilələr, hökumətlərarası müqavilələr isə Azərbaycan Respublikasının hökuməti adından imzalanan müqavilələr olaraq təsbit edilir.[28] Amma Qanun hansı müqavilələrin Azərbaycan Respublikası adından və hansı müqavilələrin Azərbaycan Respublikası hökuməti adından bağlanması məsələsinə ayrıca aydınlıq gətirmir, beləliklə də, bunu müqavilənin tərkibinin və xarakterinin öhdəsinə həvalə edir.

Maraqlıdır ki, Qanunun 7-ci maddəsində dövlətlərarası və Azərbaycan qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri istisna edən "*Azərbaycan Respublikasının digər beynəlxalq müqavilələri*" anlayışından istifadə edilir. İstisnadan çıxış edib bu beynəlxalq müqavilələri müəyyən etməyə çalışsaq, onların Azərbaycan Respublikası qanunlarından fərqli qaydalar müəyyən et**məyən** müqavilələr olduğunu müəyyən etmiş olarıq. Belə müqavilələr barədə danışıqlar və onların imzalanması *xüsusi səlahiyyət ol**madan*** həyata keçirilə bilər.

Qeyd edilənlənlərdən müəyyən etmək mümkündür ki, beynəlxalq razılaşmanın "*Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi*" olması üçün bir neçə kriteriya mövcuddur:

1. Xarici dövlətlə bağlanması
2. Beynəlxalq təşkilatla bağlanması
3. Azərbaycan Respublikasının adından (dövlət yaxud hökumət olaraq) bağlanması

Bu üç xüsusiyyət beynəlxalq razılaşmanı "*Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi*" kimi səciyyələndirməyə imkan verir.

Qanun və Fərmanda (Qaydalarla) digər hər hansı xüsusiyyət müəyyən edilməmişdir. Buna görə də, qeyd edilən xüsusiyyətlərin olmadığı beynəlxalq razılaşmalar Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi hesab edilmir.

[26] Yenə orada, mad. 2.
[27] Yenə orada. Bu maddədə göstərilən müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərinin "mərkəzi icra hakimiyyəti orqanları" tərəfindən həyata keçirildiyi 27.07.2011 tarixli 480 saylı Prezident Fərmanı ilə müəyyən edilir.
[28] Yuxarıda istinad 25.

## 2. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması səlahiyyəti

Azərbaycan Respublikasının dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələrinin imzalanması səlahiyyəti Konstitusiya ilə *yalnız* Azərbaycan Respublikası Prezidentinə həvalə edilmişdir.[29] Bu baxımdan, yalnız Azərbaycan Respublikasının Prezidenti əlavə səlahiyyət almadan Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalaya bilər. Digər şəxslərin Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalaması Azərbaycan Respublikası Prezidentinin müvafiq səlahiyyəti verməsi ilə mümkündür. Konstitusiyaya əsasən, Azərbaycan Respublikasının Prezidenti dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələri bağlamaq səlahiyyətini 1-ci vitse-prezidentə, Nazirlər Kabinetinin üzvlərinə, eləcə də müəyyən etdiyi digər şəxslərə verə bilər.[30]

Burada Konstitusiyanın yuxarıda qeyd edilən maddəsindəki "*müəyyən etdiyi digər şəxslər*" ifadəsi ölkə başçısına geniş seçim imkanı verir və hər hansı məhdudiyyətin olmadığı kimi anlaşılır.

Qanunun 6-cı maddəsi Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalamaq səlahiyyətini müvafiq icra hakimiyyəti orqanlarının *və* dövlətə məxsus müəssisələrin rəhbərlərinə" verə biləcəyini təsbit edir. Yuxarıda müzakirə etdiyimiz "*mərkəzi icra hakimiyyəti orqanları*" və "*dövlətə məxsus müəssisələr*"ə qanuvericilikdə olan fərqli yanaşma bu maddədə bariz olaraq görünür - qanunverici "*mərkəzi icra hakimiyyəti orqanları*" dedikdə "*dövlətə məxsus müəssisələr*"i nəzərdə tutmur.

Ümumən isə Qanunun 6-cı maddəsi ilə Azərbaycan Respublikası Prezidentinə beynəlxalq müqavilələri imzalamaq səlahiyyətini mərkəzi icra hakimiyyəti orqanlarının və dövlətə məxsus müəssisələrin rəhbərlərinə vermək *hüququ* verilir. Azərbaycan Respublikasının Prezidenti bu hüquqdan istifadə etməyib səlahiyyəti başqa şəxsə (məsələn Azərbaycan Respublikasının səfirinə yaxud yerli icra hakimiyyətinin başçısına) həvalə edə bilər. Təcrübədə buna tez-tez rast gəlinir.

Əksər hallarda isə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalamaq səlahiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının, yaxud Azərbaycan dövlətinə məxsus şirkətlərin rəhbərlərinə verilir. Burada qarşıya çıxan əsas sual (ki, bu sualın aydınlaşdırılması hazırkı məqalənin məqsədidir) dövlətə məxsus müəssisələrin beynəlxalq müqavilələrinin "Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi" hesab edilib edilməməsidir?

---

[29] Yuxarıda istinad 1.
[30] Yuxarıda istinad 1, mad. 110-1.

## 3. Dövlətə məxsus müəssisələrin beynəlxalq müqavilələri

Dövlət müəssisələri (şirkətləri) müxtəlif səpgili və əsasən kommersiya xarakterli beynəlxalq müqavilələr bağlayırlar. Bu təcrübə onların gündəlik təsərrüfat fəaliyyətindən irəli gəlir. Belə müqavilələrə xarici dövlətlərin şirkətləri (o cümlədən eyni sahədə fəaliyyət göstərən dövlət şirkətləri), dövlət orqanları ilə olan memorandumları, protokolları, razılaşmaları, müqavilələri aid etmək olar. Dövlət müəssisələrinin (şirkətlərinin) bağladığı belə beynəlxalq müqavilə Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi hesab edilməməlidir.

Xüsusi vurğulanmalıdır ki, Qanunda və Qaydalarda da dövlətə məxsus müəssisələrin (şirkətlərin) bağladığı beynəlxalq müqavilələr birbaşa hökumətlərarası müqavilələr yaxud dövlət müqavilələrinə aid edilmir.

Buna görədir ki, dövlətə məxsus müəssisələrin (şirkətlər) bağladıqları bütün müqavilələr "*Azərbaycan Respublikasının müqaviləsi*" hesab edilmir.

Əsas olan "dövlətə məxsus müəssisələrin bağladıqları beynəlxalq müqavilələrin Azərbaycan Respublikasının olub olmamasını *necə müəyyən etməli?"* sualının cavablandırılmasıdır.

Sualın cavablandırılması əslində sadədir - beynəlxalq razılaşma Qanunla müəyyən edilmiş bu məqalənin 2.1-ci paraqrafında sadalanan xüsusiyyətlərə cavab vermədikcə və imza yerində "*Azərbaycan dövlətinin adından*" və ya "*Azərbaycan hökuməti adından*" yazılmadıqca belə müqavilə "*Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi*" hesab edilmir, hətta belə müqavilə ilə Azərbaycan Respublikası üçün (səhmdar yaxud təsisçi olaraq) dolayı öhdəliklər yaradılsa da (bu barədə aşağıda daha ətraflı).

Amma Qanunla müəyyən edilmiş, bu məqalənin 2.1-ci paraqrafında sadalanan xüsusiyyətlərə cavab verən və Azərbaycan dövləti yaxud hökuməti adından bağlanan müqavilələr Azərbaycan dövlətinə məxsus müəssisələrin rəhbərləri tərəfindən imzalanırsa, bu halda Azərbaycan Respublikası Prezidentinin imzalayan şəxslərə xüsusi səlahiyyət verməsi tələb edilir.

## 4. Dövlətə məxsus müəssisələrin rəhbərlərinə səlahiyyət verilməsi tələb edilən beynəlxalq müqavilələr

Bundan əvvəlki hissələrdə də yazıldığı kimi dövlətə məxsus müəssisələrin *Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini* imzalamaq yaxud danışıqlar aparmaq səlahiyyəti özlüyündə yoxdur. Bu səlahiyyət Azərbaycan Respublikası Prezidenti tərəfindən verilir.

Qanunla müəyyən edilmiş, bu məqalənin 2.1-ci paraqrafında sadalanan xüsusiyyətləri ehtiva edən və Azərbaycan dövləti yaxud hökuməti adından bağlanan müqavilələr Azərbaycan dövlətinə məxsus müəssisələrin rəhbərləri

tərəfindən imzalanırsa, bu halda Azərbaycan Respublikası Prezidentinin imzalayan şəxslərə xüsusi səlahiyyət verir[31].

Digər hallarda xüsusilə təşkilatlar öz adlardan beynəlxalq müqavilələr bağladıqda Qanun və Qaydalar səlahiyyətin verilməsini tələb etmir, hətta belə müqavilə ilə Azərbaycan Respublikası üçün (səhmdar yaxud təsisçi olaraq) dolayı öhdəliklər yaradılsa belə.

İddia edilə bilər ki, dövlətə məxsus müəssisələr imzaladıqları istənilən müqavilə ilə dövlət üçün - *dövlət şirkətləri dövlətin onların səhmdarı olduğundan digər şirkətlər isə təsisçiləri dövlət olduğundan (dövlətin olduqlarından)* –öhdəlik (dolayı yaxud birbaşa) yaradırlar və bu səbəbdən səlahiyyətin verilməsi tələb edilir.

Amma Qanuna və Qaydalara əsasən dövlət müəssisələrinin müqavilələrinin, *səhmdarı və təsisçisi olaraq*, dövlət üçün dolayı yaxud birbaşa öhdəlik yaratması səbəbindən müvafiq qaydada səlahiyyət üçün müraciət edilməli olduğunu demək mümkün deyil. Müəssisənin dövlətə məxsus olub-olmamasından asılı olmayaraq hər müqavilə dövlətin müqaviləsi deyil, bu mənada hər beynəlxalq müqavilə də Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi deyil.

Burada sual, əlbəttə ki, dövlətin öz müəssisələrinin öhdəlikləri üçün məsuliyyət daşıyıb-daşımamasıdır. Hazırkı məqalənin predmeti olmasa da, qeyd edilməlidir ki, dövlət şirkətlərində məsələyə şirkətlərin nizamnamələrinin perspektivindən baxılsa, əksər hallarda təsisçi müəssisənin öhdəliklərinə görə cavabdeh deyil və belə müəssisələrin fəaliyyəti ilə bağlı zərər üçün iştirakının (payı və /və ya səhmləri) *dəyəri* həddində risk daşıyır. İştirak 100% (yüz faiz) olsa da, onun dəyəri nizamnamə kapitalındakı həcmi ilə ölçülür.

## Nəticə

Bu Məqalədə biz dövlət müəssisələrinin beynəlxalq müqavilələri imzalamaq məsələsini araşdırdıq. Araşdırarkən ən başlıcası "müəssisə" anlayışından başladıq. Müəyyən etdik ki, Azərbaycan qanunvericiliyinə baxdıqda "müəssisə" dedikdə təkcə "kommersiya şirkəti" nəzərdə tutulmur, həm də qeyri-kommersiya təsisatları "müəssisə" olaraq başa düşülür. "Dövlət müəssisələri" ifadəsi də bu mənada həm dövlətin yaratdığı kommersiya qurumlarını, həm də qeyri-kommersiya qurumlarını əhatə edir. Maraqlı məqamlardan biri "dövlət müəssisələrinin", "mərkəzi icra hakimiyyəti orqanı" yaxud "icra hakimiyyəti orqanı" hesab edilib-edilməməsi idi. Müəyyən etdik ki, hər hansı nazirlik, komitə yaxud digər icra hakimiyyəti orqanı qurumları və əmlakı olan iri təsisatdır və bu mənada "dövlət müəssisəsidir". Yəni nəzərə alsaq ki, "müəssisə" Azərbaycan qanunvericiliyi baxımından həm də qeyri-kommersiya qurumlarına şamil edilə bilən addır,

[31] Yuxarıda istinad 2.

"mərkəzi icra hakimiyyəti orqanı" yaxud "icra hakimiyyəti orqanı" dövlət müəssisəsi sayıla bilər. Amma yenə də hər dövlət müəssisəsinin mərkəzi icra hakimiyyəti olmasını demək qanunvericilik baxımından mümkün deyil. "Dövlət şirkətləri" də qanunvericilik baxımından "mərkəzi icra hakimiyyəti orqanı" yaxud "icra hakimiyyəti orqanı"hesab olunmur.

Bunlara baxmayaraq həm kommersiya, həm də qeyri-kommersiya dövlət müəssisələrinin müqavilə, o cümlədən beynəlxalq müqavilə bağlamaq səlahiyyəti mövcuddur. Əks halda onların təsərrüfat fəaliyyətləri mümkün olmazdı. Burada fərqləndirilməli olan dövlət müəssisələrinin beynəlxalq müqavilələri ilə Azərbaycan Respublikasının beynəlxalq müqavilələridir.

Məqalənin başlıca tezisi dövlət müəssisələrinin bütün beynəlxalq müqavilələrinin "*Azərbaycan Respublikasının beynəlxalq müqavilə*"ləri olmaması idi ki, bu tezis Qanun və Qaydaların araşdırılması ilə təsdiqini tapdı.

Bu mənada "*Azərbaycan Respublikasının beynəlxalq müqavilələri*"nin anlayışını araşdıraraq müəyyən etdik ki, "*Azərbaycan Respublikasının beynəlxalq müqavilələri*" Azərbaycan Respublikası adından xarici dövlətlər və beynəlxalq təşkilatlarla bağlanan dövlətlərarası və hökumətlərarası razılaşmalardır. Bununla bağlı qeyd etdik ki, Qanun beynəlxalq razılaşmanın "*Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi*" kimi səciyyələndirilməsi üçün 3 xüsusiyyət müəyyən edir – (a) xarici dövlərlə bağlanması (b) beynəlxalq təşkilatla bağlanması (c) Azərbaycan Respublikasının (dövlət yaxud hökumət olaraq) adından bağlanması.

Dövlət müəssisələrinin beynəlxalq müqavilələri isə belə təşkilatların öz adlarından bağladıqları müqavilələrdir və yuxarıda qeyd edilən üç xüsusiyyətə cavab verə bilmədikdə "*Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi*" hesab edilmir.

Əgər "*Azərbaycan Respublikasının beynəlxalq müqavilələri*"ni dövlət müəssisələrinin rəhbərləri bağlayırsa, bu halda onlar Azərbaycan Respublikası Prezidenti tərəfindən müvafiq qaydada səlahiyyətləndirilməlidirlər. Lakin dövlət müəssisələri yuxarıda sadalanan xüsusiyyətlərə cavab verməyən öz beynəlxalq müqavilələrini bağlayırlarsa, bu halda onlara xüsusi səlahiyyətin verilməsi tələb edilmir.

Yekun da o da qeyd edilməlidir ki, mövcud qanunvericiliyin dövlət müəssisələrinin beynəlxalq müqavilələri imzalaması sahəsində olan hissəsinə yenidən baxılması və bu hissənin daha dəqiq və aydın ifadə edilməsi, dövlət müəssisələrinə anlayışın verilməsi, dövlət müəssisələrinin beynəlxalq müqavilələrinə anlayışın verilməsi və onların Azərbaycan Respublikasının beynəlxalq müqavilələrindən fərqləndirilməsinə ehtiyac vardır. Qanunvericinin bu sahədəki normativ aktlara müvafiq dəyişik və əlavələr etməsi bu sahədə dövlət təcrübəsində nəzərə çarpacaq təkmilləşməyə səbəb olacaqdır.